

**ELDAR İBRAHİMOV,**
Azərbaycan Respublikası
Milli Məclisinin komissiya sədri

## MÜSTƏQİLLİYİMİZİ DÖNMƏZ VƏ ƏBƏDİ EDƏN ŞƏXSİYYƏT

Heydər Əliyev Vətəni qarşısında göstərdiyi misilsiz xidmətləri, cahanşümul əməlləri ilə Azərbaycan xalqının qəlbində özünə möhtəşəm bir abidə ucaltmışdır. Bu nadir tarixi simanın şüurlu ömrünün hər bir anı canından artıq sevdiyi Azərbaycanın yüksəlişi, tərəqqisi ilə bağlı olmuşdur.

Onun Azərbaycana ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublikamızda həyatın bütün sahələrində əldə edilmiş nailiyyətlər gələcək müstəqilliyimiz üçün möhkəm iqtisadi, mənəvi və siyasi zəmin yaratmışdır. Sonralar Sovetlər İttifaqına rəhbərlik edən şəxslərdən biri kimi o, Azərbaycanla əlaqələrini heç vaxt kəsməmiş, respublikanın inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Bu təcrübəli dövlət xadiminin günbəgün artan nüfuzundan xoflanan qüvvələr hər vəchlə onu keçmiş ittifaq rəhbərliyindən uzaqlaşdırmağa çalışırdılar.

Belə bir vaxtda Dağlıq Qarabağ ermənilərinin separatçılıq meylləri və "Böyük Ermənistan" xülyası ilə yaşayanların təcavüzü ilə üzləşmiş respublikamız dərin böhran keçirir, ölkənin Moskvapərəst naşı rəhbərləri isə imperiya siyasətini yeritməkdə davam edirdilər. Bu milli xəyanətin nəticəsi kimi Qanlı 20 Yanvar faciəsi baş verdi. Bakı küçələrində günahsız insanların qanı töküldü. Ancaq sovet imperiyasının ağır zirehli texnikası xalqımızın azadlıq və müstəqillik ruhunu sındıra bilmədi. Bu qanlı faciədən xəbər tutan Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək burada keçirilən yığıncaqda çıxış etdi. O, öz çıxışında İttifaq rəhbərliyinin amansız hərəkətlərini ifşa edərək Bakıda törədilmiş faciəni bütün dünyaya bəyan etdi. Heydər Əliyevin hadisə ilə bağlı Azərbaycan xalqına ünvanladığı müraciətində deyilirdi: ***"Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanuna zidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı, kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram."***

Heydər Əliyev Azərbaycanda baş verən prosesləri diqqətlə izləyir, hadisələrin qorxulu məcrada inkişaf edəcəyini qabaqcadan görürdü. Xalqının taleyinə biganə qala bilməyən bu böyük siyasətçi onu gözləyən ciddi təhlükələrə baxmayaraq, 1990-cı il iyulun 20-də Bakıya qayıtdı, iki gün sonra isə Naxçıvana getdi. Sonralar Azərbaycan SSR Ali Sovetinin 1991-ci il 9 fevral tarixli iclasında Vətənə qayıtmağı barədə Heydər Əliyev belə demişdir: ***"...Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq... üçün yox, ancaq və ancaq respublikanın bu ağır***

*və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüququmdan heç kəs məhrum edə bilməz..."*

Heydər Əliyevin Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi illər bütün xalqımızın taleyində mühüm bir mərhələyə çevrildi və Naxçıvan Azərbaycanın dövlət müstəqilliyinə doğru yolunda bayraqdar rolunu öz üzərinə götürdü.

Heydər Əliyevin Naxçıvana qayıtması respublika əhalisində böyük ruh yüksəkliyi, gələcəyə inam yaratdı. O, öz uzaqgörənliyi ilə İttifaqın dağılacağını qabaqcadan görür və Azərbaycanın müstəqil olacağına qəlbən inanırdı. Məhz möhtərəm Heydər Əliyevin sədrliyi ilə keçən Muxtar Respublika parlamentinin 1990-cı il 17 noyabr tarixli sessiyası Muxtar Respublikanın rəsmi adından "Sovet Sosialist" sözlərini çıxartdı, qanunverici hakimiyyət orqanının adını dəyişərək Ali Məclis qoydu. İlk dəfə olaraq Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağını Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi elə o vaxtdan müstəqilliyimizin əsasını qoydu. Zaman Heydər Əliyevin haqlı olduğunu bir daha sübut etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan öz müstəqilliyinə qovuşdu.

Heydər Əliyevin Naxçıvanda yenidən siyasətə qayıtması Azərbaycanı bir dövlət kimi məhv etmək istəyən daxili və xarici düşmənləri təşvişə salmışdı. İqtidar Naxçıvanı blokadada saxlayır, Heydər Əliyevi ölkədə cərəyan edən siyasi proseslərdən təcrid etməyə çalışırdı.

Belə bir mürəkkəb şəraitdə Naxçıvanda yaşayan Heydər Əliyev əhalinin ciddi təkidi ilə 1991-ci il sentyabrın 3-də Muxtar Respublikanın Ali Məclisinə sədr seçilməyə razılıq verdi. Heydər Əliyevin bu vəzifəyə seçilməsini bütün naxçıvanlılar istəyirdilər. O gün sessiya keçirilən binanın qarşısında toplaşan yüz minlərlə insan onun Muxtar Respublikaya rəhbər seçilməsini tələb edirdi. Bu barədə möhtərəm Heydər Əliyev belə demişdir: ***"Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin dövründə, üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".***

Müstəqilliyin ilk illərində cəbhə xəttində vəziyyət günbəgün kəskinləşirdi. Xocalı faciəsindən sonra Ayaz Mütəllibov istefaya getməyə məcbur olmuş, Şuşa düşmənə təslim edilmişdi. Yaranmış hakimiyyət böhranından istifadə edən Cəbhə-Müsavat cütlüyü hakimiyyəti ələ almışdı. Ancaq onların səriştəsizliyi ucbatından daxili və xarici siyasətdə buraxılan səhvlər onsuz da mürəkkəb olan vəziyyəti daha da gərginləşdirirdi.

Belə bir vaxtda Heydər Əliyev Naxçıvanda dövlət quruculuğuna, idarəetmənin təkmilləşdirilməsinə, iqtisadi islahatların aparılmasına, xarici ölkələrlə əlaqələrin inkişafına, müdafiə və hərbi quruculuq məsələlərinə ciddi fikir verirdi. İlk öncə o, blokadada olan Naxçıvanın vəziyyətini yüngülləşdirmək üçün qardaş Türkiyə və İranla əlaqələr yaratdı.



Heydər Əliyev Muxtar Respublikaya başçılıq etməyə başladığı ilk gündən təcili tədbirlər görməyə başladı. 1991-ci il sentyabrın 7-də Naxçıvanın Dövlət Müdafiə Komitəsi təşkil olundu, dekabrın 16-da Muxtar Respublikanın Ali Məclisi hər il dekabr ayının 31-nin Dünya Azəri türklərinin həmrəylik və birlik günü kimi bayram olunması barədə qərar qəbul etdi. 1992-ci il yanvarın 13-də Ali Məclis Qanlı Yanvar hadisələrinə siyasi qiymət verilməsini tələb edən bəyanat qəbul etdi. 1992-ci il martın 24-də Ankarada Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu imzalandı. Qars müqaviləsinin şərtlərinin yerinə yetirilməsi ilə bağlı Türkiyə tərəfi ilə danışıqlar aparıldı.Türkiyə Nazirlər Kabineti Ermənistanın Naxçıvana təcavüzü ilə əlaqədar bəyanat verdi. Bölgəyə türk qoşunu göndərilməsi təklif olundu. Naxçıvan aeroportu yenidən quruldu. Muxtar Respublika üçün həqiqətən həyati əhəmiyyət kəsb edən Sədərək körpüsünün açılışı mərasimi keçirildi.

Heydər Əliyevin ölkədə günbəgün artan nüfuzundan qorxuya düşən Xalq Cəbhəsinin silahlı dəstələri 1992-ci il oktyabrın 24-də Naxçıvanda ilk dövlət çevrilişinə cəhd göstərirdilər. Belə ağır günlərdə Heydər Əliyev özünün təcrübəli dövlət xadimi olduğunu bir daha sübut etdi. Siyasi hakimiyyət xalq tərəfindən birmənalı şəkildə dəstək aldı. Blokada şəraitində olan Naxçıvanı işğaldan qoruyub saxlamaq, əhaliyə mənəvi dayaq olmaq sözün həqiqi mənasında böyük hünər tələb edirdi. Heydər Əliyevin qətiyyəti və iradəsi sayəsində Naxçıvanda vəziyyət sabitləşdi.

Bu dövrdə ölkə ərazilərinin ermənilər tərəfindən işğalı, dərin iqtisadi, siyasi böhran, əhalinin ağır sosial durumu respublikanı onu gözləyən labüd fəlakətlərdən xilas edə biləcək, xalqı öz ardınca aparmağa qadir bir siyasi qüvvəyə ehtiyac olduğunu şərtləndirirdi. Belə bir vaxtda baş verən siyasi prosesləri diqqətlə izləyən və xalqın gələcək taleyinə biganə qala bilməyən insanlar Heydər Əliyevə müraciət etdilər. Müraciətdə deyilirdi: ***"Uzun illər-əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir".***

1992-ci ilin noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Əlbəttə, bu şəraitdə YAP-ın yaranması tarixi zərurət idi və Azərbaycanın dünyada tanınmış, dövlətçilik təcrübəsi olan liderə ehtiyacı vardı.

Heydər Əliyevin adı ilə bağlı olan bu partiya o dövrkü iqtidarı qeyzləndirir, psevdodemokratlar hər vəchlə partiyanın təşkilatlanması işinə mane olmağa çalışırdılar. Bütün təzyiqlərə, təqiblərə, təxribatlara baxmayaraq, Yeni Azərbaycan Partiyası tezliklə təşkilatlandı və respublikanın siyasi arenasında öz dəsti-xətti olan siyasi bir qüvvəyə çevrildi. YAP-ın yaranması barədə möhtərəm Heydər Əliyev belə demişdir: *"1992-ci ildə Naxçıvanda ağır bir şəraitdə, böyük təzyiqlər altında biz partiyanın yaranması ilə əlaqədar xeyli işlər gördük və ilk konfrans keçirdik... Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqını mənafelərinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq zəruriyyətdən yaranmış bir partiyadır. Biz partiyanı yaradarkən heç də düşünmürdük ki, qısa bir müddətdən sonra hakimiyyətə gələcəyik. Baxmayaraq ki, ölkəmizdəki vəziyyət - sizin hamınıza məlum olan vəziyyət bizim hamımızı düşündürürdü. Ona görə də bir tərəfdən biz hesab edirdik ki, partiyanı yaradaraq biz xalqımıza müəyyən bir xidmət göstərə bilərik. İkinci tərəfdən də, sadəcə, ölkənin belə ağır vəziyyətində bir çox insanların ümidi, istəyi, nəhayət, bu partiyanın yaranmasına gətirib çıxardı".*

Yeni Azərbaycan Partiyası qısa zaman kəsiyində ölkənin siyasi həyatında öz dəsti-xətti olan nüfuzlu bir qüvvəyə çevrildi. Bu dövrdə ölkədə separatçılıq meylləri tüğyan edir, avantürist Surət Hüseynov qoşunları cəbhə xəttindən çəkərək iqtidara meydan oxuyurdu. Ölkə rəhbərliyinin fərsizliyi ucbatından Gəncədə qardaş qanı töküldü. Hadisələri düzgün qiymətləndirə bilməyən iqtidar əhali arasında günbəgün öz nüfuzunu itirirdi.

Belə bir ağır vaxtda Gəncə hadisəsi ilə əlaqədar Naxçıvan Ali Məclisinin bəyanatı ölkə vətəndaşlarında gələcəyə böyük inam yaratdı. Bəyanatda deyilirdi: *"Baş vermiş hadisə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da qəzəb və hiddətlə qarşılanmışdır. Biz bunu müstəqil dövlətçiliyimizə edilən qəsd, yenicə titrək addımlarını atan Azərbaycan dövlətinə arxadan vurulan zərbə hesab edirik".*

Vətənin müqəddəratının həll olunduğu belə bir məqamda Heydər Əliyevin Bakıya gəlişi respublika əhalisində ruh yüksəkliyi yaratdı. Heydər Əliyev vəziyyətlə yaxından tanış olmaq üçün iyunun 13-də Gəncə şəhərinə gəldi. Bu mahir siyasətçinin şəhərə gəlişi böyük hadisəyə çevrildi. Hamı qəlbən inanırdı ki, ölkəni düşdüyü bu fəlakətlərdən ancaq Vətənin böyük oğlu Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı xilas edə bilər. Bunu o dövrkü iqtidar nümayəndələri də yaxşı başa düşür, ancaq vəzifə və kreslo hərisliyi onlara düzgün addım atmağa imkan vermirdi.

İyunun 15-də Heydər Əliyevin ölkənin Ali qanunvericilik orqanına sədr seçilməsi respublika həyatında keyfiyyətcə yeni dövrün başlanğıcı oldu. Bu qayıdış sözün həqiqi mənasında Azərbaycan millətinin və dövlətçiliyinin qurtuluşu oldu. Heç də təsadüfi deyildir ki, sonralar ölkənin Milli Məclisi 15 iyun gününü Azərbaycan xalqının Milli qurtuluş günü elan edilməsi haqqında qərar qəbul etdi.



1997-ci il 27 iyun tarixli bu qərarda deyilirdi: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması əslində onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi."

Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışının dövlətçiliyimiz üçün misilsiz əhəmiyyəti oldu. Bu tarixi qayıdışından sonra ölkədəki xaos və anarxiya qısa zamanda aradan qaldırıldı. Separatçıların respublikanı parçalamaq kimi məkrli niyyətlərinə son qoyuldu. Dövlətçilik prinsipləri tədricən bərpa olundu. Ordu quruculuğu sahəsində mühüm işlər görüldü. Cəbhədə atəşkəs elan olundu. Dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul olundu. Parlamentə, yerli özünüidarə orqanlarına demokratik seçkilər keçirildi. Ölkədə demokratik dəyişikliklər aparıldı. Söz və mətbuat azadlığının etibarlı təminatı üçün qanunvericilik bazası yaradıldı. İnzibati hüquq sistemi yenidən quruldu. İqtisadiyyatın dirçəldilməsi üçün konkret tədbirlər həyata keçirilməyə başladı. Sənayedə, kənd təsərrüfatında islahatlar aparıldı. Torpaq kəndliyə verildi. Özəlləşmə reallığa çevrildi.

Ölkəmizin beynəlxalq strukturlarla əməkdaşlığının genişləndirilməsi üçün məqsədyönlü, ardıcıl siyasət aparıldı. Milli qanunvericilik Avropa standartları səviyyəsinə qaldırıldı. Respublikamız digər beynəlxalq təşkilatlarla yanaşı, Avropa Şurasının tam hüquqlu üzvü oldu.

Bu gün Heydər Əliyev ocağının layiqli yetirməsi İlham Əliyevin başçılığı ilə Milli Məclisin AŞPA-dakı daimi nümayəndə heyəti Azərbaycan həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırılmasında səmərəli fəaliyyət göstərir. 2003-cü ilin qış sessiyasında cənab İlham Əliyevin təşkilata sədr müavini və Büro üzvü seçilməsini respublika ictimaiyyəti Azərbaycan diplomatiyasının böyük uğuru kimi dəyərləndirmişdir.

Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışından sonra dünyanın tanınmış neft şirkətləri ilə "əsrin müqaviləsi" və digər kontraktlar imzalandı. Azərbaycana investisiya axını başlandı. Respublikamız Qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi qlobal neft və qaz xətləri çəkilişinin fəal iştirakçısına və təşəbbüskarına çevrildi.

Müstəqillik illərində qazandığımız nailiyyətləri Böyük öndərimiz dövlət müstəqilliyimizin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə belə xarakterizə etmişdir:

***"On il içərisində Azərbaycan xalqı böyük məsafə qət edibdir. On il müstəqil yaşamaq, yaratmaq, irəliyə getmək — bu on ilin mənası və xalqımız üçün böyük əhəmiyyəti budur. On il ərzində Azərbaycan xalqı bəyan etdiyi demokratik,***

***hüquqi, dünyəvi dövlət qurubdur, onun təsisatlarını yaradıbdır. Bu dövlətin yaşaması üçün, inkişaf etməsi üçün çoxsaylı qanunlar qəbul edibdir. Bazar iqtisadiyyatı yolu ilə gedərək, bütün sahələrdə islahatlar aparılıb və bu islahatların nəticəsinə nail olubdur. On il müddətində Azərbaycan dünya miqyasında özünə layiq yerini tutubdur, bütün beynəlxalq təşkilatlarda təmsil olunur. Dünyanın bütün ölkələri ilə diplomatik əlaqələr yaradıb, bir çox ölkələrlə qarşılıqlı, faydalı, çox uğurlu əməkdaşlıq edir. Bu on il bizim xalqımızın çoxəsrlik həyatında ən böyük tarixi hadisədir, ən qiymətli nemətdir."***

Əgər XX əsrin əvvəlində müstəqilliyimizi qoruyub saxlamaq mümkün olmamışdısa, əsrin sonunda türk dünyasının nadir tarixi simalarından sayılan, 80 illik yubileyini bu il ümumxalq bayramı kimi qeyd edəcəyimiz, bütün Dünya azərbaycanlılarının sevimlisi Heydər Əliyevin dühası ilə bu müqəddəs neməti qoruyub saxlamaq mümkün oldu. Azərbaycanımız bütün çətinliklərə baxmayaraq tarixin sınağından üzüağ çıxdı. Heç də təsadüfi deyil ki, ayrı-ayrı əmək kollektivləri, sadə zəhmət adamları, respublikamızın ən müxtəlif bölgələrinin sakinləri sınanmış Ümummilli liderimizin yubileyini böyük təntənələrlə qeyd edəcəyimiz 2003-cü ili Heydər Əliyev ili hesab edir.

Bütün ölkə vətəndaşları haqlı olaraq Azərbaycanın müstəqilliyini dönməz və əbədi etmiş, görkəmli dövlət xadimi Heydər Əliyevlə fəxr edir. İnanıram ki, qarşıdan gələn prezident seçkilərində qədirbilən xalqımız öz Böyük oğlunu yenidən prezident seçərək bu nadir şəxsiyyətin dühası işığında daha böyük zirvələr fəth edəcək, yeni-yeni zəfərlər qazanacaqdır!